**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

## Dövlət Gömrük Komitəsinin nümayəndələrinin ATİB üzvləri ilə görüşü keçirildi

**No: 09/04/83**
**23.02.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) ofisində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Gömrük nəzarətinin təşkili baş idarəsinin baş inspektoru Mahir İbrahimov, Maliyyə tarif və valyuta nəzarəti baş idarəsinin vergi və yığımlar şöbəsinin rəisi Rüfət Elçiyev ilə ATİB üzvlərinin görüşü keçirildi. Görüşün keçirilməsində məqsəd gömrük siyasəti və qanunvericiliyi sahəsində yeniliklər, vahid pəncərə sisteminin tətbiqi, gömrük tarifləri və s. barədə iş adamlarını məlumatlandırmaq idi.

M.İbrahimov bir pəncərə sisteminin dünyanın əksər ölkələrində tətbiq olunduğunu söyləyərək onu da bildirdi ki, bu sistemin tətbiq olunmasında əsas məqsəd mal və məhsulların operativ və tez keçirilməsinin təmininin təşkilidir: "Əvvəllər iş adamları sərhəddən keçərkən vaxt itkisi yaşayırdılar. Lakin indi həyata keçirilməsi planlaşdırılan yenidənqurma işlərinin nəticəsində sərhəddəki vaxt itkisi minimuma endiriləcəkdir."

M.İbrahimov Azərbaycan Respublikasının yeni gömrük məcəlləsinin hazırlanaraq Milli Məclisə təqdim olunduğunu bildirdi. M.İbrahimov həmçinin riskin idarə olunması baxımından ölkə ərazisinə gələnlər üçün qırmızı, sarı, yaşıl və s. koridorların tətbiq ediləcəyini bildirdi: "1 pəncərə sisteminə əsasən mallar haqqında əvvəlcədən məlumat alınır, malın hansı koridora daxil ediləcəyi müəyyən edilir. Hazırda koridorların tikilməsi prosesi gedir"

M.İbrahimov mal və nəqliyyat vasitələrinin sərhəddə təqdim olunandan sonra 20 dəqiqə ərzində keçməsinin təmin ediləcəyi barədə də məlumat verdi: "Əgər qanunvericilikdə müəyyən olunmuş heç bir pozuntu yoxdursa, mal və nəqliyyat vasitəsinin çox qısa müddətdə gömrük məntəqəsindən keçməsi təmin olunacaqdır."

M.İbrahimov həmçinin riskin idarə olunması məsələsinə də münasibət bildirdi: "Qanunvericiliyə əsasən mal gətirilməzdən əvvəl gömrük orqanı bu barədə məlumatlandırılmalıdır. Düsturlar, riyazi hesablamalardan istifadə edərək araşdırma aparılır və mal haqqında tam məlumat əldə edilir. Qaçaqmalçılıq, kontrabanda və qanun pozuntuları aşkar olunması halında həmən mal və nəqliyyat vasitəsi qırmızı koridora yönəldiləcəkdir."

M.İbrahimov sadalanan qaydaların idxal, ixrac və tranzit əməliyyatlarına da aid olduğunu bildirdi. M.İbrahimov yaşıl koridordan sonra audit yoxlamalarının həyata keçirilə biləcəyi barədə də məlumat verdi.

R.Elçiyev Dövlət Gömrük Komitəsinin Avropa gömrük təşkilatlarına üzv olmaq istəyindən söz açaraq bildirdi ki, tariflər sisteminin 7 pillədən 3 pilləyə endirilməsi gözlənilir.

R.Elçiyev gömrük yığımlarının ÜTT-nin tələblərinə uyğun olaraq yeganə yığım – optimal məbləğin müəyyən edilməsi üzərində işlənildiyini qeyd etdi.

Daha sonra görüş iştirakçıların suallarını cavablandırmaqla davam etdirildi.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**